# NAXÇIVAN TARİXİNƏ VƏ NAXÇIVANŞÜNASLIQ ELMİNƏ DƏYƏRLİ TÖHFƏ




**"Naxçıvan tarixi" çoxcildliyinin III cildi də nəşr edilərək geniş oxucu kütləsinə təqdim olunub. Ümumiyyətlə, "Naxçıvan tarixi" çoxcildliyinin III cildinin işıq üzü görməsi Azərbaycan tarixşünaslıq elmində, o cümlədən naxçıvanşünaslıq elmində mühüm əhəmiyyətə malik, diqqətəlayiq hadisədir.**

Çox nəfis şəkildə nəşr edilən "Naxçıvan tarixi" kitabının ideya müəllifi və baş məsləhətçisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovdur. Akademiklər İ.M.Hacıyev, İ.Ə.Həbibbəyli, AMEA-nın müxbir üzvləri F.Y.Səfərli, Q.İ.Qədirzadə və V.B.Baxşəliyev kitabın redaksiya heyətinin üzvləridir. Maraqlıdır ki, yeddi fəsildən ibarət olan kitabın ərsəyə gəlməsində yeddi müəllif iştirak etmişdir. Kitab Naxçıvanın İkinci Dünya müharibəsi dövründən başlayaraq 2015-ci ilədək olan tarixini özündə toplu olaraq əks etdirən əsaslı mənbələrdəndir.

Birinci fəsil "Naxçıvan İkinci Dünya müharibəsi dövründə" adlanır. Bu fəsildə Naxçıvanın İkinci Dünya müharibəsi dövr tarixi əks etdirilmişdir. Burada yeni arxiv sənədləri və mənbələr, tədqiqat əsərləri, dövri mətbuat materialları əsasında İkinci Dünya müharibəsinin başlanması, Naxçıvan MSSR-də hərbi səfərbərlik, naxçıvanlıların müharibə cəbhələrində iştirakı, partizan döyüşlərində və antifaşist hərəkatında, arxa cəbhədəki fəaliyyəti, naxçıvanlı Sovet İttifaqı Qəhrəmanları haqqında bəhs edilmiş, Naxçıvanın sosial-iqtisadi həyatı, təhsil, elm, ədəbiyyat, mətbuat, incəsənət kimi sahələri tədqiqata cəlb olunmuşdur.

Kitabın "Naxçıvan müharibədən sonrakı bərpa dövründə və 50-60-cı illərdə" adlanan ikinci fəslində müharibədən sonrakı bərpa dövründə və 50-60-cı illərdə Naxçıvanda sosial-siyasi, iqtisadi vəziyyət, naxçıvanlıların bərpa olunan digər sovet respublikalarına köməyi kimi məsələlərdən geniş bəhs olunmuşdur. Bəllidir ki, 1948-53-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından, indiki Ermənistan SSR ərazilərindən deportasiyası məsələlərinin öyrənilməsi ermənilərin xalqımıza qarşı apardığı antitürk siyasətinin tərkib hissə kimi olduqca vacib və prioritet məsələrdəndir. Təbii ki, deportasiyaya məruz qalmış insanların bir hissəsi də Naxçıvan MSSR ərazilərinə köçərək burada məskunlaşmışlar. Kitabda bu məsələlərə də müasir dövrdə müstəqilliyin verdiyi imkanlardan istifadə olunmaqla diqqətlə yanaşılmış, yeni arxiv materialları əsasında bir sıra maraqlı tarixi faktlar ortaya qoyulmuş, deportasiya olunmuş soydaşlarımızın yerləşdiyi əraziləri əks etdirən xəritələrdən istifadə edilmişdir. Bəhs olunan dövrdə Naxçıvanın sosial-iqtisadi həyatı, burada kənd təsərrüfatı və sənayenin inkişafı, mədəniyyətin müxtəlif sahələrinin tədqiqi kimi məsələlər diqqət mərkəzində saxlanılaraq ciddi araşdırmaya cəlb edilmişdir.

Kitabın üçüncü fəsli "Naxçıvan 1970-80-ci illərdə" adlanır. Burada Naxçıvanın 1970-80-ci illər dövr tarixi tədqiqata cəlb olunmuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə Azərbaycan, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR sürətli inkişaf yoluna qədəm qoymuşdur. Başqa sözlə desək, ölkədə dönüş və inkişaf mərhələsi başlamışdır. Bu dövrdə ümummilli lider Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan o dövrkü sovet respublikaları içərisində geridə qalmış aqrar respublikadan, inkişaf etmiş, qabaqcıl respublikalardan birinə çevrilmişdir. 70-80-ci illərdə Naxçıvanın ictimai-siyasi həyatı, sosial-iqtisadi yüksəlişi bu fəsildə araşdırma obyektinə çevrilmişdir. Fəsildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1978-ci il Konstitusiyası, 70-80-ci illərdə Naxçıvanda təhsil, elm, ədəbiyyat, mətbuat, teatr, memarlıq, musiqi, təsviri sənət məsələlərinin tədqiqinə də geniş yer verilmişdir.

Kitabın dördüncü fəsli Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi həyatının 1988-1990-cı illər dövrünü əhatə edir. Məlumdur ki, keçən əsrin 80-ci illərinin sonundan başlayaraq Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsinin qızışması, Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı ciddi təzyiq hallarının artması və Sovet hakimiyyətinin bu münaqişədə erməni yönümlü siyasət yeritməsi nəticəsində iki ölkə arasında qarşıdurmanın güclənməsi və müharibənin başlaması ilə nəticələndi. Təbii, Dağlıq Qarabağ münaqişəsinin baş verməsi Naxçıvanın da ictimai-siyasi həyatına təsir edirdi. Belə bir dövrdə məhz ilk dəfə olaraq Naxçıvan MSSR-də "sərhəd hərəkatı" baş verdi. Bu hərəkat əslində xalqımızın milli müstəqillik və azadlıq uğrunda mübarizəsinin əsas təkanverici səbəblərindən biri idi. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra bu tarixin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunmasına nail olundu. Keçən əsrin 90-cı illərindən başlayaraq erməni quldur dəstələri müxtəlif istiqamətlərdən Naxçıvan ərazilərinə qarşı təcavüzə başladılar. Həmin dövrdə Moskvadan Naxçıvana qayıdan dahi lider Heydər Əliyevin apardığı məqsədyönlü siyasət və yerli əhalinin mübarizliyi sayəsində düşmən öz mənfur niyyətini həyata keçirə bilmədi. Fəsildə, həmçinin ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıdışı, Naxçıvan MSSR-in ilk dəfə olaraq SSRİ-nin tərkibindən çıxaraq Naxçıvan Muxtar Respublikası adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının ilk dəfə Naxçıvan Ali Məclisinin sessiyasında qaldırılması və bu bayrağın müstəqil Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi üçün mərkəzi hakimiyyət qarşısında məsələ qaldırılması haqqında qərarın qəbul edilməsi, Naxçıvanda həyata keçirilən ilk demokratik dəyişikliklər və s. kimi məsələlərdən geniş bəhs edilmişdir.

Kitabın beşinci fəsli "Naxçıvan müstəqilliyin ilk illərində (1991-1993-cü illər)" adlanır. Burada xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçilməsi, muxtar rsepublikada həyata keçirilən iqtisadi islahatlar, bölgənin erməni işğalçılarından müdafiəsinin təşkili, rus qoşunlarının münaqişəsiz muxtar respublika ərazilərindən çıxarılması və milli ordunun yaradılması istiqamətində görülən işlərdən geniş bəhs olunmuşdur. Bəhs olunan dövrdə ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və siyasi nüfuzu sayəsində Naxçıvan Muxtar Respublikasının düşdüyü blokada vəziyyətindən çıxarılması istiqamətində olduqca əhəmiyyətli addımlar atılmışdır. Dahi liderin Türkiyə və İran İslam Respublikalarına etdiyi səfərlər, apardığı danışıqlar, məqsədyönlü fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasının Türkiyə və İranla iqtisadi əlaqələri xeyli gücləndi. Ümummilli Liderin şəxsi təşəbbüsü, siyasi nüfuzu, dostluq münasibətləri nəticəsində Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında "Ümid körpüsü" açıldı. Bununla da muxtar respublikanın iqtisadi yüksəlişi üçün əsaslı zəmin yarandı. Fəsildə, həmçinin Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusunun ləğv edilməsinə göstərilən cəhdin və Naxçıvanda dövlət çevrilişinə cəhdin qarşısının dahi liderin uzaqgörənliyi, siyasi iradəsi ilə alınması, Naxçıvanın muxtariyyətinin daha da möhkəmləndirilməsi istiqamətində əməli addımlar atılması və ən nəhayət 21 noyabr 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması məsələləri geniş araşdırılmışdır.

Kitabın altıncı fəsli "Naxçıvan müstəqilliyin möhkəmləndirilməsi dövründə (1993-2015-ci illər)" adlanır. Burada 1993-2015-ci illərdə Naxçıvanın ictimai-siyasi həyatı, Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi, cənab Vasif Talıbovun Ali Məclisin Sədri seçilməsindən sonra muxtar respublikada sürətli, hərtəfli sosial-iqtisadi və mədəni yüksəlişin başlaması məsələlərindən geniş danışılır. Bildiyimiz kimi ümummilli lider Heydər Əliyevin, ölkə Prezidenti İlham Əliyevin siyasi kursunun layiqli davamçısı cənab Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra muxtar respublika dinamik inkişaf yoluna qədəm qoydu. Aparılan məqsədyönlü siyasət, həyata keçirilən geniş tikinti-quruculuq və abadlıq işləri muxtar respublikanın simasını gündən-günə dəyişdi. Hazırda Naxçıvan Muxtar Respublikası doğma Azərbaycanımızın ən inkişaf etmiş, abad, təmiz bölgələrindən biridir. Fəsildə yuxarıda qeyd edilən məsələlər tutarlı və yeni faktlarla tədqiqata cəlb edilmişdir.

Kitabın yeddinci fəsli "Mədəniyyət" adlanır. Burada 1988-ci ildən başlayaraq günümüzədək olan dövrdə Naxçıvanda elm, təhsil, ədəbiyyat, mətbuat, incəsənət və mədəni-maarif müəssisələrinin keçdiyi inkişaf yolu izlənilmiş və araşdırmaya cəlb edilmişdir.

Kitabın sonunda Naxçıvan tarixinin 1944-cü ildən 2015-ci ilə qədər olan mühüm tarixi fakt və hadisələrini əhatə edən tarixi-siyasi xronologiya verilmişdir.

Kitabda, həmçinin illüstrativ materiallardan, xəritə və şəkillərdən geniş istifadə edilmişdir. Bütün bu materiallar Naxçıvanın İkinci Dünya müharibəsi dövründən başlayaraq 2015-ci ilə qədərki tarixi gerçəkliklərini əks etdirən sanballı mənbələrdir.

Naxçıvan tarixinin III cildində Azərbaycanın zəngin mədəniyyət beşiklərindən sayılan Naxçıvanla bağlı tarixi həqiqətlərin yeni sənədlər və faktlarla dəqiq və anlaşıqlı şəkildə izahı müəlliflərin yüksək tədqiqatçılıq qabiliyyətindən, peşəkarlığından xəbər verir. Tarixi hadisələrin konkret və hərtərəfli şəkildə təhlil olunması ondan oxucuların yaxşı bəhrələnəcəyinə inam yaradır. Bu kitab tarixçilər üçün, xüsusilə erməni saxtakarlığına qarşı öz obyektiv fikirlərini çatdırmaq istəyən tarixçilər üçün çox qiymətli vəsaitdir.

Fikrimizcə, Naxçıvanın "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən nəfis şəkildə çap edilən "Naxçıvan tarixi" kitabının üçüncü cildində əks olunan faktlar Naxçıvanın möhtəşəm tarixi, mübarizə əzmi, dinamik inkişafı və mənəvi mədəniyyətinin ən mükəmməl gerçəklikləri, Azərbaycan xalqının milli sərvətidir. Bu baxımdan "Naxçıvan tarixi" təkcə uyğun sahənin tədqiqatçıları, müəllimlər, elm adamları, tələbələr üçün deyil, həm də xalqımızın zəngin tarixinə maraq göstərən hər bir şəxs üçün, geniş oxucu kütləsi üçün, xüsusilə Azərbaycan gəncliyi üçün faydalı mənbədir.

**RƏŞAD Zülfüqarov,**
AMEA Naxçıvan Bölməsi